*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

**Heydər Əliyev.**



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 7 (9239) | 30 aprel 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik



## HESABAT İCLASI KEÇİRİLMİŞDİR

**Aprel ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclasındakı nitqindən irəli gələn vəzifələrlə əlaqədar Qazax rayonunda da hesabat iclası keçirilmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov geniş məruzə ilə çıxış edərək ölkə başçısının cari ilin ilk üç ayı ərzində Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı işlərə, qazanılan uğur və nailiyyətlərə öz münasibətini bildirməsindən, qarşıda duran vəzifələrdən danışmasından söz açmışdır. 2017-ci ilin birinci rübünün rayonumuz üçün də uğurlu olduğunu qeyd edən R.Babaşov aparılan tikinti-quruculuq işlərindən, həyata keçirilən məqsədyönlü tədbirlərdən danışmışdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Qazax rayon Suvarma Sistemləri İdarəsinin rəisi Abbas Göyüşov, Elekrik Şəbəkəsinin rəisi Elşad Məmmədov, Şəmkir Regional Qaz İstismar İdarəsinin Qazax rayonu üzrə rəis müavini İlkin Nəsibov, Su-kanal İdraəsinin rəisi Alı Hüseynov, Kənd Təsərrüfatı İdarəsinin rəisi Həmid Pənahov, Telekommunikasiya Qovşağının rəisi Nizaməddin Məmmədov, Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, RİHB-nın Daş Salahlı kənd İƏD üzrə nümayəndəsi Tahir Hüseynli, Çaylı kənd İƏD üzrə nümayəndəsi Ceyhun Binnətov çıxış edərək rəhbərlik etdikləri sahələrdə görülən işlərdən və qarşıda duran vəzifələrdən danışmışlar.

Çıxış edənlərdən ağsaqqal, Quşçu Ayrım kənd sakini Yusif Nəbiyev sərhəd kəndlərində yaşayan kənd sakinlərinə, AYB-nin Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal yaradıcı insanlara göstərdiyi diqqət və qayğıya görə, işçi qrupunun üzvü, Çaylı kənd sakini Qəzənfər Qocayev isə kənd təsərrüfatı sahəsində görülən işlərə görə rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq qarşıda duran vəzifələrdən danışmış, öz tapşırıq və tövsiyələrini vermişdir.

**Elçin İSMAYIL**

## Çernobıl qəzasından 31 il ötür



**Qazax rayon İcra Hakimiyyətində XX əsrin ən böyük radiasiya fəlakəti olan Çernobıl qəzasının 31 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə rayonda yaşayan çernobıl əlilləri iştirak etmişdir.**

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirib ki, 1986-cı il aprelin 26-da Çernobıl AES-in dördüncü blokunda baş vermiş qəza böyük bir ərazini xarabazara çevirmiş, yüzlərlə adamın həyatına son qoymuş, yüz minlərlə adam radioaktiv şüalanmaya məruz qalmış, sağlamlığını itirmiş, ömürlük əlil olmuşdur. Qəzanın nəticələrinin aradan qaldırılmasında 8 mindən artıq azərbaycanlı iştirak etmişdir. Çernobıl əlillərinin və ailə üzvlərinin daim dövlət qayğısı ilə əhatə olunduqlarını nəzərə çatdıran R.Babaşov onların üzləşdiyi problemlərin həllində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi" haqqında Qanunun böyük əhəmiyyət daşıdığını xüsusi vurğulamışdır.

Tədbirdə çıxış edən çernobıl əlillərindən Səfər Cəfərov, Tahir Süleymanov, İlham Hacıyev, Çingiz Bənnayev, Məzahir Əliyev və başqaları onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə, Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmişlər.

## Qanvermə aksiyası keçirilmişdir

**Qazax rayonunda növbəti qanvermə aksiyası keçirilmişdir. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov rəhbərlik etdiyi kollektivlə birlikdə aksiyanın keçirildiyi Qazax Müalicə Diaqnostika Mərkəzinə gələrək qan vermişdir.**



Müxtəlif qan xəstəliklərindən əziyyət çəkənlərə köməklik məqsədilə keçirilən tədbirdə Respublika Səhiyyə Nazirliyinin Bakı Mərkəzi Qan Bankının əməkdaşları qan vermək istəyən vətəndaşları müayinə etmiş və onlara məsləhətlər verdikdən sonra qanverməyə hazırlamışlar.

Qazaxda mütəmadi olaraq keçirilən qanvermə aksiyası həmişə olduğu kimi bu dəfə də yüksək mütəşəkkillik şəraitində başlamış və uğurla başa çatmışdır.

Aksiya çərçivəsində könüllü olaraq qan vermək üçün mərkəzə 300 nəfərdən çox rayon sakini müraciət etmiş və onların 157 nəfərindən qan götürülmüşdür.

## Milli Qəhrəman Alı Mustafayevin xatirəsinə tikilmiş bulaq abidə kompleksinin açılışı olmuşdur





**Telejurnalist, publisist, şair, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Azərbaycan Respublikasının əməkdar jurnalisti və Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayevin xatirəsinə tikilmiş bulaq abidə kompleksinin açılışı olmuşdur.**

Milli Qəhrəmanın doğulduğu Qazaxbəyli kəndində keçirilən açılış mərasimində Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, İcra Aparatının məsul işçiləri, idarə müəssisə və təşkilat rəhbərləri, Qazax RİHB-nın kənd İƏD üzrə nümayəndələri, bələdiyyə sədrləri, Milli Qəhrəmanın adını daşıyan məktəbin müəllim-şagird kollektivi, qonaqlar, tələbə yoldaşları, ailə üzvləri, dostları, yaxınları, kənd sakinləri və KİV nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq şəhid jurnalist Alı Mustafayevin həyatı və fəaliyyəti barədə danışmışdır. Qeyd etmişdir ki, A.Mustafayev Qarabağ münaqişəsi başlayandan cəbhə bölgəsindən reportajlar hazırlamış və daim ön cəbhədə olaraq



öz jurnalist fəaliyyətini peşəkarcasına yerinə yetirmişdir. Öz vəzifə borcunu ləyaqətlə yerinə yetirən Alı Mustafayev "İlin ən yaxşı jurnalisti" və "Respublikanın Əməkdar Jurnalisti" fəxri adlarına layiq görülmüşdür. A.Mustafayev Azərbaycan mətbuatının qızıl fonduna düşən jurnalistlərdəndir.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək bildirmişdir ki, Azərbaycanın vətənpərvər oğulları, eləcə də jurnalistləri unudulmurlar. Çünki bu qəhrəman insanlar, vətənpərvər jurnalistlər azadlıq, müstəqillik mücahidləri kimi canlarını Vətən yolunda fəda etmişlər.

Böyük Vətən Müharibəsi Veteranı, ağsaqqal Xanqulu Süleymanov, şair, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Ələddin İncəli, şəhidin tələbə yoldaşlarından telejurnalist Qərənfil Xəlilova, AzTv-nin əməkdaşı Mirzə Yusifov, "Xalq" qəzetinin Şəki-Balakən üzrə bölgə müxbiri İlqar Həsənov, RİHB Aparatında şöbə müdirinin müavini Məhəmməd Orucov, əməkdar jurnalist Sərhəd Məmmədov, "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl, şair Kazım Kazımlı və başqaları çıxış edərək A.Mustafayevin jurnalistika sahəsində olan xidmətlərindən danışmış, onun jurnalstika ilə yanaşı yaradıcı şair olduğunu da qeyd etmişlər. Onunla bağlı olan xatirələrindən söz açmış, yazdıqları şeirləri oxumuşlar.

Milli Qəhrəmanın həyat yoldaşı Lalə xanım və oğlu Tural Mustafayev çıxış edərək Alı Mustafayevin xatirəsinə göstərilən hörmət və ehtirama görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, bu gün açılışına toplaşdığımız bulaq abidə kompleksi şəhid jurnalistə verilən dəyərin ən bariz nümunəsidir.

Sonra Qazaxbəyli kənd tam orta məktəb şagirdlərinin ifasında Milli Qəhrəman Alı Mustafayevin şeirlərindən ibarət hazırlanmış ədəbi-kompozisiya nümayiş olunmuşdur.

Daha sonra Milli Qəhrəmanın ata evində ehsan süfrəsi açılmışdır.

**Nüşabə HÜSEYNOVA**

## ÖLÜM SEVİNMƏSİN QOY...

### Milli Qəhrəman Firuddin Şamoyevin xatirəsinə tikilmiş bulaq abidə kompleksinin açılışı olmuşdur



**Ermənistanla 168 km məsafədə yerləşən Qazax rayonu da torpaqlarımızın ərazi bütövlüyünün qorunması yolunda yüzlərlə şəhid verib. Belə şəhidlərdən biri də qəhrəmanlıq zirvəsinə yüksələn Şamoyev Firuddin İsa oğludur. 1962-ci anadan olan Firuddin orta təhsilini başa vurandan sonra hərbi xidməti borcunu yerinə yetirib yenicə ailə həyatı qurmuşdu.**

O, 1991-ci ilin iyul ayının 8-də öz istəyi ilə könüllülərdən ibarət dəstəyə yazıldı. Könüllülərdən ibarət olan dəstədə Firuddin öz qorxmazlığı, hərbi tapşırıqları yerinə yetirməsi ilə yaşıdlarından fərqlənirdi. Onun cəsur və qorxmaz olduğunu görən rəhbərlik Firuddini "N" saylı hərbi hissəyə komandir təyin etdi. O, vətənpərvər gəncləri başına toplayaraq silaha sarılıb Vətənin müdafiəsinə qalxdı. Qazax rayonunun Bağanıs Ayrım, Quşçu Ayrım kəndlərinin müdafiəsində iştirak etdi.

Firuddin döyüş zamanı öz güc və bacarığı ilə Vətənini canından da çox sevdiyini bir daha sübut etdi. Düşmənin xeyli canlı qüvvəsini və zirehli texnikasını məhv etdi. Vətən sevgisi ona hər şeydən üstün idi. Evdə 3 körpə fidanın gözləri yolda qalsa da o, seçdiyi yoldan geri çəkilmədi. 13 aprel 1992-ci il. Həmin gün Firuddin sonuncu dəfə döyüşə atıldı. Quşçu Ayrım kəndi ətrafında gedən qanlı vuruşda qəhrəmancasına həlak oldu.

Vətən öz şəhid övladının adını uca tutdu. Göstərdiyi şücaətə görə onun adı qəhrəmanlar sırasına yazıldı. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Şamoyev Firuddin İsa oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi.

F.Şamoyev Qazax şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilib. Qazaxdakı şəhər 4 saylı tam orta məktəb qəhrəmanımızın adını daşıyır.

Şəhərin girəcəyində onun xatirəsini əbədiləşdirən bulaq abidə kompleksi var idi. Lakin bu bulaq baxımsızlıq ucbatından pis hala düşmüşdü.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun tapşırığına əsasən Firuddin Şamoyevin xatirəsinə tikilmiş Qazax şəhərinin girişində yerləşən bulaq abidə kompleksi yenidən əsaslı şəkildə təmir edilmiş, Milli Qəhrəmanın adına layiq səviyyəyə gətirilmişdir. F.Şamoyevin ildönümü günündə bulağın açılışı olmuşdur. Açılış mərasimində şəhidin ailə üzvləri, yaxınları, doğmaları, ziyalılar, ağsaqqallar, veteranlar, ictimaiyyət nümayəndələri iştirak etmişdir.

Bundan əvvəl də şəhidlərə hörmət əlaməti olaraq onların xatirəsinə bulaq abidə kompleksləri inşa edilmişdi. Ümumiyyətlə, bu gün Qazax şəhərində şəhidlərin xatirəsinə 7 bulaq abidə kompleksi tikilmişdir.

Sonra rayon ağsaqqalı Xanqulu Süleymanov, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, şair Cavanşir Rüstəm, qəhrəmanın adını daşıyan şəhər 4 saylı tam orta məktəbin direktoru Məhəmməd Aşırov və başqaları çıxış edərək şəhidin keçdiyi döyüş yolundan danışmışlar.



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov mərasimdə çıxış edərək respublikamızda, eləcə də Qazax rayonunda şəhidlərə göstərilən hörmət və ehtiramdan danışmışdır. Qeyd etmişdir ki, bu gün cəbhə bölgəsində yerləşən Qazax rayonu 292 şəhid vermişdir. Onlardan 5 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Milli Qəhrəmanın həyat yoldaşı Həmayıl Şamoyeva çıxış edərək ailə üzvləri adından onlara göstərdiyi diqqət və qayğıya görə rayon rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Tədbirdə məktəblilər, F.Şamoyevin nəvələri babalarına həsr olunmuş şeirlər söyləmişlər.

**Elçin İSMAYIL**

# 2017-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun

# HESABAT MƏRUZƏSİ

**Aprel ayının 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclası keçirilmişdir. İclasda ölkə başçısı cari ilin ilk üç ayı ərzində Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı işlərə, qazanılan uğur və nailiyyətlərə öz münasibətini bildirmiş, qarşıda duran vəzifələrdən danışmışdır.**

Ölkə başçısı öz çıxışında bu ilin birinci rübündə ölkəmizdə iqtisadi inkişafın təmin olunduğunu, sosial məsələlərin həllini tapdığını, ordu quruculuğunun uğurla getdiyini qeyd edərək 2017-ci il bizim üçün uğurlu il olacağını bildirmişdir. Dövlətimizin başçısı beynəlxalq vəziyyətin gərgin olduğunu, münaqişələrin davam etdiyini, yeni risklərin yarandığını təəssüflə qeyd etmiş, ölkəmizin təhlükəsizliyini təmin etmək məqsədilə tədbirlər görüldüyünü söyləmişdir.

Bu ilin ilk 3 ayı ərzində xarici ölkələrə 7 dəfə səfər etdiyini vurğulayan və beynəlxalq tədbirlərdəki iştirakından danışan Prezident İlham Əliyev bu səfərlərin böyük əhəmiyyət daşıdığını, Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin inkişafı baxımından önəmini vurğulamışdır. 2017-ci ilin ilk 3 ayında Azərbaycana 7 dövlət başçısının səfər etdiyini xatırladan ölkə Prezidenti cənab İlham Əliyev bunu ölkəmizə olan hörmətin göstəricisi kimi qiymətləndirmişdir. Cənab Prezident İlham Əliyev qeyd etmişdir ki, bu ilin birinci rübündə Bakıda keçirilən və 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısının iştirak etdiyi V Qlobal Forum, ABŞ və Rusiya silahlı qüvvələrinin qərargah rəislərinin görüşü Azərbaycanın dünyadakı rolunu, dünya miqyasında etibarlı tərəfdaş olduğunu əks etdirir.

Cocuq Mərcanlı kəndinin bərpasını da tarixi hadisə adlandıran dövlətimizin başçısı bu gün orada yeni qəsəbənin salındığını, ilkin mərhələdə 50 evin tikildiyini, yeni yolun salındığını, məscidin inşa olunduğunu, sonrakı mərhələdə daha 150 evin tikintisinin nəzərdə tutulduğunu qeyd etmişdir. Azərbaycan xalqının heç vaxt işğalla barışmayacağını, ərazi bütövlüyünü bərpa etdikdən sonra bütün şəhər və kəndləri yenidən quracağını vurğulamışdır.

İqtisadiyyatımızın əsas göstəricilərinə nəzər saldıqda 2017-ci ilin ötən dövründə qeyri-neft sektorunun 2,4 faiz artdığını, qeyri-neft sənayesində artımın 2 faiz səviyyəsində olduğunu, kənd təsərrüfatının 3,5 faiz artdığını, bitkiçiliyin 20 faizdən çox artdığı məlum olur. Birinci rübdə valyuta ehtiyatlarımızın 1 milyard dollar səviyyəsində artdığını və bu gün valyuta ehtiyatlarımızın 38,5 milyard dollar təşkil etdiyini deyən dövlətimizin başçısı bunu önəmli məsələ adlandırmışdır. Bu ilin 3 ayı ərzində ticarət dövriyyəsi 15 faiz, ixrac təxminən 50 faiz, qeyri-neft ixracımız təxminən 10 faiz artıb, idxal isə 17 faiz azalıb. İdxalın azalması, ixracın kəskin artması iqtisadi sabitliyimizi təmin edir. Ticarət dövriyyəmizin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir.

Bu göstəricilərin iqtisadi inkişafımızı aydın əks etdirdiyini, gələcəkdə də iqtisadi potensialımızı gücləndirəcəyimizi deyən ölkə başçısı birinci rübdə 85 min yeni iş yerinin yaradıldığını da diqqətə çatdırmışdır. Yeni iş yerlərinin yaradılmasının təkcə dövlət sektorunda deyil, özəl sektorda da davam etdiyini, özəl sektorda 40 mindən çox yeni iş yerinin yaradıldığını deyən dövlətimizin başçısı bunu iqtisadi inkişafın təzahürü adlandırmışdır.

Dövlət büdcəsinin icrasının uğurla getdiyini, builki investisiya proqramının tam şəkildə icra edilməsinin vacibliyini, ölkə üçün ən lazımlı layihələrə vəsaitin ayrıldığını, maliyyə vəziyyətimizin yaxşı olduğunu bildirən dövlətimizin başçısı valyuta ehtiyatlarımızın xarici borcumuzdan 5 dəfədən çox olduğunu söylədi və bunu yaxşı nəticə adlandırdı. Diqqətə çatdırdı ki, bu il inşaat sektorunda canlanma müşahidə edilir.

Prezident İlham Əliyev sənaye istehsalı və kənd təsərrüfatı sahələrinin inkişaf etdiyini bildirdi. Rayonlarda sənaye zonalarının yaradıldığını deyən dövlətimizin başçısı kənd təsərrüfatının inkişafı üçün bu il 150 min hektar yeni torpağın suvarılmasının nəzərdə tutulduğunu, yeni zavodların istifadəyə veriləcəyini qeyd etdi və görüləcək işlərin bu sahədə artıma səbəb olacağını vurğulamışdır.

2017-ci ilin birinci rübü rayonumuz üçün uğurlu olmuşdur.

Qazax rayonu üzrə 2017-ci ilin yerli gəlir və xərclərinin proqnozu 9.073.000 manat məbləğində müəyyənləşdirilmişdir. 2017-ci ilin birinci rübündə yerli daxilolmalar 1.520.635 manat proqnoza qarşı 1.765.928 manat və ya 116,1 faiz yerinə yetirilərək büdcəyə 245.293 manat artıq vəsait mədaxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 409.060 manat və ya 30,1 faiz çox vəsait daxil olmuşdur. 2017-ci ilin birinci rübündə qarşılıqlı hesablaşmalar əsasında 324.164 manat vəsait daxil olmuş və 234.888 manat vəsait öz təyinatı üzrə xərc edilmişdir. Yekun olaraq 2017-ci ilin birinci rübündə yerli gəlirlər cəmi 1.844.799 manat proqnoza qarşı 2.090.092 manat, yəni 113,3 faiz yerinə yetirilmişdir. 2017-ci ilin 3 ayında yerli xərclər 2.524.366 manat proqnoza qarşı 1.799.896 manat icra olunaraq 71,3 faiz icra olunmuşdur.

Rayon ərazisində 7 özəl bank filialı, 1 özəl bank şöbəsi, 1 kredit ittifaqı və 4 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. 2017-ci ilin 3 ayı ərzində əhaliyə 2.640.870 manat kredit verilmişdir ki, bunun da 836.650 manatı uzunmüddətlidir.

Əhalidən 339.509 manat və 249.382 ABŞ dolları əmanət cəlb olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 4 layihə üzrə 41000 manat (4 iş yeri) kredit verilmişdir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və sosial müavinətlərinin ödənilməsi üçün 2017-ci ilin 3 ayında 9.833.200 manat vəsait köçürülmüşdür. Şöbədə 2017-ci ilin 3 ayında sosial sığorta haqları üzrə yığım proqnozu 90,6 faiz yerinə yetirilmişdir. Belə ki, 736.100 manat proqnoza qarşı 667.000 manat vəsait toplanmışdır. O cümlədən bu göstərici büdcə təşkilatları üzrə 469.400 manat proqnoza qarşı 457.600 manat toplanmaqla 97,4 faiz, qeyri-büdcə təşkilatları üzrə 266.700 manata qarşı 209.400 manat olmaqla 78,5 faiz, o cümlədən hüquqi şəxslər 134.000 manata qarşı 135.400 manat olmaqla 101 faiz, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə isə 121.500 manata qarşı 73.300 manat toplanmaqla 60 faiz yerinə yetirilmişdir. 2017-ci ilin birinci rübündə şöbədə qeydiyyatda 13642 nəfər pensiyaçı olmuşdur. Onlardan 9612 nəfəri yaşa görə, 3243 nəfəri əlilliyə görə və 787 nəfəri ailə başçısını itirməyə görə pensiya alanlardır. Bundan başqa 1675 ailənin 6901 üzvünə rüb ərzində 768.800 manat ünvanlı sosial yardım, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirak etmiş 2372 nəfər müharibə veteranına 355.800 manat müavinət, 3049 nəfərə 1.072.600 manat sosial müavinət ödənilmişdir.



Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində də müəyyən işlər görülmüşdür.

2017-ci ilin birinci rübündə Qazax Elektrik Şəbəkəsi tərəfindən 110/35/6 və 35/10/6 kv-luq Daş Salahlı və Şıxlı yarım stansiyalarında, eləcə də 11 ədəd 35/10 kv-luq yarım stansiyalarda olan avadanlıqlarda cari təmir işləri aparılmışdır. 35 kv-luq hava xəttində 0,4 km uzunluğunda cari təmir işləri aparılmış, 12 ədəd izalyator dəyişdirilmişdir. 10 kv-luq hava xəttində 9,06 km uzunluğunda cari təmir işləri aparılmış, 3,6 km uzunluğunda tarımlama işləri aparılmış, 3,6 km məsafədə ağaclar budanmış, 25 ədəd əyri dayaq düzəldilmiş, 244 ədəd izalyator dəyişdirilmiş, 20 ədəd ağac dayaq beton dayaqla əvəz edilmiş, 2,9 km uzunluğunda zədəli naqillər yenisi ilə əvəz olunmuşdur. 0,4 kv-luq hava xəttində 20,45 km uzunluğunda cari təmir işləri aparılmış, 41 ədəd ağac dayaq beton dayaqla əvəz edilmiş, 7,5 km uzunluğunda tarımlama işləri aparılmış, 231 ədəd sınıq izalyatorlar dəyişdirilmiş, 3,8 km məsafədə ağaclar budanmış, 2,7 km uzunluğunda zədəli naqil yenisi ilə əvəz edilmiş, 350 m uzunluğunda zədəli naqil SİP kabellə əvəz edilmişdir. Kosalar kəndində yeni salınmış məhəllənin işıqlandırılması üçün 1 ədəd 160 kv gücündə transformator quraşdırılmışdır.

2017-ci ilin birinci rübü ərzində şəbəkə üzrə cəmi pul yığımı 1.366.700 manat olmuşdur. O cümlədən, pul yığımı yerli əhali sektorunda 646.200 manat, sərfiyyat dəyəri isə 692.400 manat, yığım faizi 93,3 faiz olmuşdur.

Bildiyiniz kimi Qazax rayonun bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Şəmkir RQİİ-nin Qazax Xidmət Sahəsi tərəfindən 3 ayda əhali abonentlərə satılmış qazın dəyəri 1.577.891 manat, yığım isə 1.505.774 manat olmaqla 95,4 faiz yerinə yetirilmişdir. Ötən dövr ərzində 69 nəfər yeni abonent təbii qazla təmin olunmuşdur. 219 ədəd məişət qaz sayğacları yeni qaz sayğacları ilə, 98 ədəd mexaniki qaz sayğacı Smart tipli sayğaclarla əvəz olunmuşdur.

Qazax Telekommunikasiya Qovşağı tərəfindən 2017-ci ilin birinci rübün yekununa görə 336.000 manat tarif gəliri proqnozuna qarşı 336.438 manat gəlir əldə edilərək proqnoz tapşırığa 100 faiz əməl olunmuşdur. Rüb ərzində 29 ədəd yeni telefon çəkilmiş, 14 ədəd telefon şəbəkəyə bərpa olunmuş, "Aztelekom" internet provayder üzrə 283 ədəd artım olmuş, ümumi istifadəçi sayı 4933-ə çatmışdır.

Hesabat dövründə Qazax Poçt filialı tərəfindən əhalidən enerji, qaz, su, telefon pulları qəbul edilərək aidiyyəti təşkilatların bank hesablarına köçürülmüş, plan tapşırıqları 126 faiz yerinə yetirilmişdir. Filial tərəfindən 235 ədəd bağlama qəbul edilmiş və 68 ədəd bağlama müxtəlif ünvanlara göndərilmişdir. Həmçinin 2144 məktub göndərilmiş, 2505 ədəd məktub qəbul edilmişdir.

"Qazax-Avtovağzal" ASC-i 2017-ci ilin birinci rübündə plana 104 faiz əməl edərək 81.000 nəfər sərnişinə xidmət göstərmişdir.

Qazax Su-Kanal İdarəsi tərəfindən 2017-ci ilin 3 ayı ərzində 6.088 əhali abonentə xidmət göstərilmiş və 105.132 manat vəsait toplanmışdır. Bu isə satışın 89 faizini təşkil edir. Rüb dövründə abonentlərin sayı 95 abonent olmaqla 123 nəfər artmışdır. Təşkilat tərəfindən 1 ədəd artezian nasosu, 3 ədəd su mühərriki və 4 ədəd su mühərrikinin nasos hissəsi əsaslı təmir olunmuşdur.

2017-ci ilin 3 ayında Qazax Kommunal Müəssisələri Kombinatı üzrə 123.813 manat vəsait daxil olmuşdur. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 58.583 manat çoxdur. Ölkə Prezidentinin tapşırığı əsasında işsizliyin aradan qaldırılması məqsədilə 2017-ci ilin yanvar ayından Kommunal Müəssisələri Kombinatının yaşıllaşma və təmizlik sahələrində 108 nəfər işlə təmin olunmuşdur.

Qazax Mənzil İstismar Sahəsi tərəfindən ötən 3 ay ərzində 12 binanın dam örtüyündə sınmış və çatlamış şiferlər dəyişdirilmiş, çoxmərtəbəli yaşayış binalarının tüstü bacaları təmizlənmiş, 1 şəhid ailəsinin yaşadığı mənzil təmir olunmuşdur. Rüb ərzində sakinlərdən 3365 manat mənzil haqqı yığılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 20 oktyabr 2016-cı il tarixli sərəncamına əsasən Qazax şəhərində təmir işləri nəzərdə tutulmuş 24 ədəd çoxmənzilli binaların dam örtüyündə və fasad hissəsində təmir işləri başa çatmışdır. Vətəndaşların müraciətlərinə əsasən əlavə 7 ədəd çoxmənzilli binalarda təmir işləri nəzərdə tutulmuşdur, bunlardan da 4 binanın dam örtüyü dəyişdirilmiş, hazırda işlər davam edir. Cəmi 24 binaya qarşı 31 binada işlər görülmüşdür. Əlavə olaraq Qazax şəhərində 41 ədəd çoxmənzilli yaşayış binalarında təmir işlərinə başlanılmış və hazırda işlər davam edir. Bu işlərlə əlaqədar 103 nəfər işlə təmin olunmuşdur.

2017-ci ilin 3 ayı ərzində rayonun təhsil, mədəniyyət və səhiyyə müəssisələri tərəfindən də bir sıra işlər görülmüşdür.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, o cümlədən 1 məktəb-lisey, 6 ümumi orta, 7 ibtidai məktəb və 5 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Cari dərs ilində ümumtəhsil məktəblərində təhsil alan 11.691 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.713 nəfər müəllim məşğul olur.

2017-ci ilin yanvar ayında keçirilən fənn olimpiadalarının rayon turunda 309 nəfər şagird iştirak etmişdir. Zona mərhələsində yüksək yer tutmuş 1 nəfər şagird aprel ayında Bakı şəhərində keçiriləcək respublika turunda iştirak edəcəkdir.

"Fövqəladə Hallar uşaqların gözü ilə" müsabiqəsinin Respublika mərhələsində Qazax şəhər 5 saylı tam orta məktəbin şagirdi Bayramov Nurlan "Model Nominasiyası"nda üçüncü yerə çıxmışdır. Təhsil Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin Diplomu və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Rayonda tədrisin keyfiyyətinin artırılması məqsədilə rayon Təhsil Şöbəsi tərəfindən ayrı-ayrı fənlər üzrə 8 nəfərdən ibarət işçi qrupu yaradılmışdır. İşçi qrupu tərəfindən tədrisin vəziyyətini öyrənmək məqsədilə 24 məktəbdə 188 müəllimin dərsləri dinlənilmişdir. Dinləmələrin nəticəsinə görə 75 müəllim yüksək, 35 müəllim yaxşı, 55 müəllim orta, 23 müəllim isə zəif qiymətləndirilmişdir. Yüksək nəticə göstərmiş müəllimlərdən Tünzalə Hacıyeva, İlkin Hüseynov, Könül Kərimova, Gülnarə Hadıyeva, Şəlalə Musayeva, Venera Quliyeva və digər yüksək bilikli müəllimləri qeyd etmək olar. Göstəricilərə əsasən şəhər 1 və 2 saylı, məktəb-lisey, şəhər ümumi orta məktəb, Çaylı kənd 2 saylı tam orta məktəbləri yüksək, Xanlıqlar kənd ümumi orta məktəbi isə zəif nəticə göstərmişdir. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilir. 2016-2017-ci tədris ilinin sonunda görülmüş işlərin nəticələri geniş müzakirə olunaraq müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Rüb ərzində ümumtəhsil məktəblərində orta aylıq davamiyyət 94,3 faiz olmuşdur. 2017-ci ilin mart ayında məktəblilərin yaz tətilində "Ölkəmizi tanıyaq" tur-aksiyasında rayonun IX-XI sinif şagirdlərindən 40 nəfəri Qəbələ-Şəki-Zaqatala bölgəsində olmuşdur. Tur-aksiya zamanı keçirilən bilik yarışmasında rayonumuzun komandası yüksək nəticə göstərərək birinci yerə layiq görülmüşlər. Həmin şagirdlər fəxri fərmanla mükafatlandırılmışdır.

Rayonda 25 körpələr evi-uşaq bağçası fəaliyyət göstərir ki, bunlardan 6-sı şəhərdə, 19-u isə kəndlərdə yerləşir. Bağçalar "Ərzaq Məhsullarının Təchizatı və Təminatı" ASC tərəfindən ayda iki dəfə vaxtı-vaxtında ərzaqla təmin olunurlar və buna rayon İcra Hakimiyyəti tərəfindən daim nəzarət olunur. Qazax şəhərində 2, 3, 4 və 6 saylı körpələr evi-uşaq bağçaları istilik sistemi ilə təchiz olunmuşdur.

Fəaliyyəti dayandırılmış Aşağı Əskipara kənd körpələr evi-uşaq bağçası 25 yanvar 2017-ci il tarixindən Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış qəsəbədə yeni tikilmiş, müasir tələblərə cavab verən binada yenidən fəaliyyətə başlamışdır.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi davam etdirilir. Bundan əlavə Daş Salahlı kəndində 2 və 3 saylı uşaq bağçalarında əsaslı təmir və yenidənqurma, Kosalar kənd 2 saylı uşaq bağçasında əsaslı təmir işlərinə başlanılmış və hazırda işlər davam etdirilir.

Qazax şəhərdə fəaliyyət göstərən 5 körpələr evi-uşaq bağçasının müdirlərinin işlərini günün tələblərinə uyğun qurmaqları məqsədilə 16 yanvar 2017-ci il tarixdə yerləri dəyişdirilmişdir. Lakin, təkrar yol verdikləri nöqsanlara, işlərində dönüş yaratmadıqlarına, xüsusi ilə uşaqlara verilən yeməklərə laqeyd münasibət bəslədiklərinə, qruplarda siyahıdan əlavə artıq uşaq saxladıqlarına görə 6 saylı körpələr evi-uşaq bağçasının müdiri, iki tərbiyəçisi, təsərrüfat müdiri və aşbaz köməkçisi, 4 saylı körpələr evi-uşaq bağçasının müdiri, Daş Salahlı kənd 3 saylı körpələr evi-uşaq bağçasının müdiri və Hüseynbəyli kənd uşaq bağçasının müdiri tutduqları vəzifədən kənarlaşdırılmışdır.

Fövqaladə Hallar Nazirliyinin yerli nümayəndəliyi ilə birlikdə rayonun körpələr evi-uşaq bağçalarında və təhsil müəssisələrində yanğın təhlükəsizliyi ilə bağlı tədbirlər planı hazırlanmış, işçilərin təlimatlandırma jurnalı tutulmuş, təlimatlar verilmiş, yanğının qarşısını almaq üçün məsul şəxslər təyin olunmuş, qruplar yaradılmış və xəbərverici lövhələr hazırlanıb asılmışdır.

Qazax şəhərinin mərkəzində yerləşən Ədəbiyyat Müzeyində əsaslı təmir işləri aparılmış, binanın daxilində yenidənqurma işləri görülərək ekspozisiya bölmələri yaradılmışdır. Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsinin Qazax rayon üzrə nümayəndəliyi tərəfindən 2017-ci ilin 3 ayı ərzində rayonda Yeni il şənliyi, 2 Fevral Gənclər Günü, 8 Mart Beynəlxalq Qadınlar bayramı, Novruz bayramı, 20 Yanvar faciəsi, 26 Fevral Xocalı faciəsi, 31 Mart Azərbaycanlıların Soyqırım Günü ilə bağlı kütləvi tədbirlər geniş və əhatəli keçirilmişdir.

Qazax rayon Mərkəzi Xəstəxanasının nəzdində 135 çarpayılıq şəhər xəstəxanası, 30 çarpayılıq Uşaq xəstəxanası, 1 Təcili Yardım stansiyası, 3 Poliklinika, 100 çarpayılıq Ruhi xəstəxana, 16 kənd həkim məntəqəsi və 17 kənd tibb məntəqəsi fəaliyyət göstərir. Bundan əlavə rayonumuzda respublika tabeçiliyində olan Müalicə Diaqnostika Mərkəzi və 113 xidməti fəaliyyət göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə Mərkəzi rayon Xəstəxanasının yerində yeni 145 çarpayılıq Mərkəzi rayon Xəstəxana Kompleksinin tikintisi surətlə davam etdirilir. Rayon Mərkəzi Xəstəxanasında 2670 nəfər şəkərli diabet xəstəsi, 331 nəfər vərəmli xəstə, 655 nəfər onkoloji xəstə dispanser qeydiyyatdadır. Hesabat dövründə rayonun səhiyyə müəssisələrinə ambulator gəlişlərin sayı 38.682 nəfər olmuş, 225 nəfər rentgen-flüoqrafiya müayinəsindən keçirilmiş, 98 nəfər əməliyyat olunmuş, 351 nəfər laborator müayinədən keçirilmişdir.

Fevral ayının 15-dən etibarən dövlət başçısı İlham Əliyev cənablarının tapşırığına əsasən ölkəmizdə əhalinin tibbi müayinədən keçirilməsi aksiyası Qazax rayonunda da uğurla davam etdirilir. 40.276 nəfər əhali tibbi müayinədən keçirilmiş, 39.363 nəfər sağlam hesab edilmiş, 603 amblator müalicəyə, 160 nəfər stasionar müalicəyə, 75 nəfər isə Bakı şəhərində əlavə müayinə və müalicəyə göndərilmişdir. Vərəmli, şəkərli diabet, onkoloji xəstələrin aşkarlanaraq müalicəyə cəlb edilməsi gücləndirilmiş, həmin xəstələr müntəzəm olaraq pulsuz dərman preparatları ilə təmin edilirlər. Rayon üzrə 1750 xəstəyə qanda şəkərin miqdarını təyin edən "Qlukometr" aparatı paylanılmışdır.

Qazax Müalicə Diaqnostika Mərkəzinə 3 ay ərzində 6.084 ambulator gəliş olmuş, mərkəzdə 20.469 labaratoriya müayinələri olunmuş, 192 cərrahi əməliyyat aparılmış və hemodializ şöbəsinə 8 nəfər xəstə daxil olmuşdur. Xəstələr üzərində 1.975 hemodializ seans aparılmışdır.

Məhəmmədəli Pəhləvan adına güləş zalında əsaslı təmir işləri başa çatmış və istifadəyə verilmişdir.

Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2017-ci ilin 3 ayında gənclərlə iş sahəsi üzrə 7, bədən tərbiyəsi və idman sahəsi üzrə 9 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 1.664 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Hesabat dövründə beynəlxalq yarışlarda 9, respublika yarışlarında 34 nəfər idmançımız mükafata layiq yerlər tutmuşdur.

2017-ci ilin birinci rübündə rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 2.371.100 manat, ümumi məhsul buraxılışının həcmi 31.820.000 manat olmuşdur ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çoxdur. Sənaye məhsulunun ümumi həcmi 3.570.000 manat keçən ilə nisbətən 5,2 faiz çox, kənd təsərrüfatı məhsullarının həcmi 9.300.000 manat 2016-cı ilə nisbətən 1,4 faiz çox olmuşdur. Adambaşına düşən ümumi məhsulun həcmi 322 manat, orta aylıq əməkhaqqı 263 manat olmuşdur.

"Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. Birinci rübdə 5 yeni müəssisə yaradılmış, 630-u daimi olmaqla 660 yeni iş yeri açılmışdır. 2017-ci ilin 3 ayı ərzində Qazax Məşğulluq Mərkəzinə 16 müəssisədən 271 boş iş yeri təqdim edilmiş, müraciət etmiş 1241 nəfər vətəndaşlardan 924 nəfəri iş axtaran kimi qeydiyyata alınmış, 266 nəfər münasib işlə təmin olunmuş, 61 nəfərə işsizlik statusu verilmiş və müavinat təyinatı aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş "ASAN qatar" konsepsiyası reallaşdırılıb. Fevral ayının 1-dən etibarən ilk olaraq Səyyar "ASAN qatar" Qazax rayonunda sakinlərə 15 gün müddətində səyyar formada xidmət göstərmişdir. 15 gün ərzində xidmətlərdən 4531 nəfər vətəndaş yararlanmışdır.

Rayonda "Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri ötən ildə olduğu kimi 2017-ci ilin birinci rübündə də davam etdirilmişdir.

Qazax şəhəri H.Əliyev prospektində və küçələrə 3890 p/m uzunluğunda yeni bardür düzülmüş, 22 kv.m əraziyə tamet döşənmiş bu istiqamətdə işlər davam edir.

Qazax şəhərinin mərkəzində yerləşən "Fəxri Qazaxlılar" parkında yenidənqurma işləri aparılmış, fəvvarə kompleksləri yenidən qurulmuş, parkın ərazisinə tamet döşənmiş, bardürlar düzülmüş, yeni işıqlandırma sistemi qurulmuş, yeni oturacaqlar qoyulmuş və qazon otu, dekorativ ağac və gül kolları əkilmişdir. Bu işlərin davamı olaraq Şəhidlər Xiyabanı küçəsində, Cümə məscidinin qarşısında abadlıq işləri davam etdirilərək əraziyə tamet döşənir, bardür düzülür, işıq sistemi quraşdırılır və yaşıllıqlar salınır. Şəhidlərin abidə kompleksində tamamilə yenidənqurma işləri davam etdirilir.

Səməd Vurğun adına parkda yenidənqurma işləri yekunlaşmış, parkın 1922 kv.m sahəsinə yeni tamet döşənmiş, 119 p/m uzunluğunda yeni bardürlər düzülmüş, yaşıllıqlar salınmış və yeni işıqlandırma sistemi quraşdırılmışdır.

Qazax şəhəri ərazisində hərbi şəhərcikdə şəhidlərin xatirəsinə 1 bulaq, Milli Qəhrəman Firuddin Şamoyevin xatirəsinə 1 bulaq tikilib istifadəyə verilmişdir. 3 bulaq yenidən qurularaq müasir görkəmə salınmışdır. Bu işlərin davamı olaraq rayonun Qazaxbəyli kəndində Milli Qəhrəman Alı Mustafayevin adına yeni bulaq kompleksinin tikintisi başa çatmışdır.

"Azərxalça" ASC tərəfindən Qazax şəhərində 160 iş yerlik Xalça müəssisəsinin tikintisi davam edir.

Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə fərdi yaşayış evlərinin bütün infrastrukturlarla birlikdə tikilməsi məqsədilə sənədləşmə işləri aparılır.

**(Davamı səh.3-də)**

# 2017-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun HESABAT MƏRUZƏSİ

(Əvvəli səh.2-də)



Qazax şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması işlərinə başlanılacaqdır.

"Azəravtoyol" ASC tərəfindən Bakı-Tbilisi avtomobil yolunu Qazax-Əskipara yolu ilə birləşdirən, uzunluğu 6 km olan 7705 nəfər əhalinin yaşadığı Çaylı kəndinin içərisindən keçən avtomobil yolunun tikintisi işləri davam etdirilir. Uzunluğu 7 km olan strateji əhəmiyyətli Cəfərli kəndini Qazax-Uzuntala avtomobil yolu ilə birləşdirən yolun tikintisi üçün hazırlıq işləri görülür.

Rayonun kənd yaşayış məntəqələrindən Fərəhli kəndində 8 km, Daş Salahlı kəndində 10 km, Aslanbəyli kəndində 3 km, Çaylı kəndində 3 km, Qazaxbəyli kəndində 6 km, Orta Salahlı kəndində 4 km, Hüseynbəyli kəndində 2 km, Qarapapaq kəndində 2 km, Ağköynək kəndində 1,5 km olmaqla, cəmi 39,5 km uzunluğunda kənddaxili yollara qum-çınqıl döşənmiş, bu istiqamətdə işlər davam edir.

Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işləri davam edir.

Hər birinin illik istehsal gücü 50 min ton olan "Mətanət A" şirkəti tərəfindən Daş Salahlı kəndində və "Carçıoğlu" şirkəti tərəfindən Xanlıqlar kəndində 2 yeni Əhəng zavodlarının tikintisi davam edir. Həmin zavodlarda 450-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ və şəhid ailələri üçün 2014-cü ilin dekabr ayında tikintisinə başlanılmış 14 fərdi yaşayış evlərindən 8-i istifadəyə verilmiş, 6-da işlər yekunlaşmış, 2017-ci ildə isə daha 5 yaşayış evinin tikintisinə başlanılmışdır.

BDU-nin Qazax filialı üçün yeni bina kompleksinin tikintisi məqsədilə torpaq ayırma sənədləri hazırlanır.

2017-cı ilin birinci rübü ərzində Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

Kənd təsərrüfatı bitkilərinin normal suvarma suyu ilə təmin etmək məqsədilə Qazax Suvarma Sistemləri İdarəsi və Melioservis İdarəsi tərəfindən birinci rübdə plana uyğun olaraq arxlarda 112 min kubmetr lildən təmizləmə işləri aparılmışdır. Rayon İcra Hakimiyyətinin bilavasitə rəhbərliyi ilə 269 km uzunluğunda arx və kanallar kol-kosdan, lildən təmizlənərək vegetasiya suvarmasına tam hazır vəziyyətə gətirilmişdir. Bu istiqamətdə işlər davam etdirilir. Hazırda "Ağstafaçay" su dəryaçasında 55 mln kubmetr su vardır, gündəlik daxilolma gündəlik çıxışdan 9 kubmetr/san artıqdır. "Coğazçay" su dəryaçasında 5 mln kubmetr su vardır, daxilolma çıxışdan 0,1 kubmetr/san artıqdır, "İncəçay" su dəryaçasında 0,8 mln kubmetr su vardır, daxilolma çıxışa bərabərdir. Rayonda 6 Sudan İstifadə Birlikləri fəaliyyət göstərir, bu birliklərdə 42 nəfərdən ibarət işçi heyəti vardır və suvarma suyunun itkisiz və səmərəli istifadə olunmasına ciddi nəzarət olunur.

2017-ci ilin məhsulu üçün cəmi 10.882,6 hektar taxıl səpilmişdir ki, bunun 72,6 hektarı 2017-ci ilin birinci rübündə aparılmışdır. Kartof əkini üçün nəzərdə tutulmuş 800 hektar ərazidən 616,37 hektarında səpin işləri aparılmış, qarğıdalı üçün nəzərdə tutulmuş 422 hektar ərazidən 170,3 hektar ərazidə səpin işləri aparılmış, şəkər çuğunduru üçün nəzərdə 500 hektar ərazidən 370,75 hektar ərazidə səpin işləri aparılmışdır. Bundan əlavə 29,8 hektar vələmir, 8 hektar günəbaxan, 32,1 hektar tərəvəz, 70,3 hektar sorqo, 539,7 hektar yonca, 5,7 hektar paxlalı bitkilər səpilmiş və səpin işləri davam etdirilir. Tütün əkini ilə bağlı 1.080 kvadratmetr ştilliklər hazırlanaraq toxum səpilmişdir. Tütün əkiləcək 50 hektar sahələrdə şum aparılmışdır. 14 nəfər tütün istehsalçılarının quru tütünü təhvil vermələri üçün "İlham M" MMC tütün qəbulu müəssisəsi ilə müqavilələr bağlanmışdır. 5.500 kq barama becərilməsi nəzərdə tutulmuş və hazırlıq işləri davam etdirilir. Rüb ərzində 50,5 hektar fındıq bağı salınmış, rayonun Ağköynək kəndində 1 hektar ərazidə tərəvəzlərin yetişdirilməsi məqsədilə yeni istixana kompleksinin tikintisi başa çatmışdır.

Hesabat dövründə bitkiçilik sahəsində olduğu kimi, heyvandarlıq sahəsində də uğurlar əldə olunmuşdur. Süni yolla mayalandırılmış heyvanlardan 71 baş bala alınmış və həmin balalara görə subsidiyaların alınmasına görə sənədlər Respublika Komissiyasına təqdim edilmişdir. 117 baş iribuynuzlu heyvanlarda süni mayalanma aparılmışdır. Heyvandarlıq sahəsində zoobaytar tədbirlərinin planlı surətdə həyata keçirilməsinin nəticəsidir ki, məhsul istehsalı dinamik surətdə artmaqdadır. Belə ki, ət istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 ton artaraq 1.390 ton, süd istehsalı 1 ton artaraq 7.600 ton, yumurta istehsalı 5.000 ədəd artaraq 2.695.000 ədəd olmuşdur.

Qazax rayon Baytarlıq İdarəsi tərəfindən 2017-ci ilin birinci rübündə epizootik, müalicə-profilaktik tədbirlər planına uyğun olaraq 30.446 baş iribuynuzlu və 1.084 baş təkdırnaqlılar qarayara, 29.840 baş iribuynuzlu heyvanlar dabax, 5.457 baş sahibli ev itləri quduzluq xəstəliyinə qarşı, 3.133 baş xırdabuynuzlular Bruseliyoza qarşı Rev-1 ilə peyvənd edilmişdir. Həmçinin 106.838 baş körpə ev quşları taun xəstəliyinə qarşı "H" vaksini ilə peyvənd olunmuşlar.

2017-ci ilin 3 ayı ərzində rayon İcra Hakimiyyətinə 341 müraciət daxil olmuşdur ki, bunlardan 18-i minnətdarlıq və təşəkkür məktublarıdır. Müraciətlərdən 52-i Prezidentin Administrasiyasına, 4-ü Milli Məclisə, 4-ü Nazirlər Kabinetinə, 9-u respublikanın digər təşkilatlarına, 272-i isə bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir. 2016-cı ilin 3 ayı ilə müqayisədə Prezidentin Administrasiyasına daxil olmuş müraciətlər azalmış, bilavasitə İcra Hakimiyyətinə daxil olmuş müraciətlər isə artmışdır.

Rayon İcra Hakimiyyəti Başçısının Aparatına daxil olan müraciətlərin təhlili göstərir ki, müraciətlərin 20,2 faizi mərkəzi orqanlardan, 79,8 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Keçən ilin müvafiq dövründə isə müraciətlərin 43 faizi mərkəzi orqanlardan, 57 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Daxil olan müraciətlərin 29,3 faizi müsbət həll olunmuş, 7,0 faizi qismən həll olunmuş, 1,2 faizi əsassız sayılmış, 42,5 faizinə müvafiq izahat verilmiş, 20 faizi isə icradadır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə müsbət həll olunmuş müraciətlər 12 faiz artmışdır.

Qazax şəhər N.Nərimanov qəsəbəsi 10-11 saylı binalarda yaşayan bir qrup vətəndaşın ərizəsi əsasında araşdırma aparılmış və məlum olmuşdur ki, MİS tərəfindən mənzillərin paylanılmasında neqativ hallara yol verilmişdir. Belə ki, şəhid ailəsi Hacıyeva Sarabəyim Əhəd qızı 5 nəfər vətəndaşdan külli miqdarda vəsait alaraq Qazax MİS-in balansında olan mənzillərin ona məxsus olduğunu bildirərək həmin mənzilləri vətəndaşlara satdığını bildirmişdir. Bununla əlaqədar aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmışdır.

2016-cı ilin ilk 3 ayı ərzində Qazax RİH Başçısının RİHB aparatında keçirdiyi qəbullar zamanı 136 nəfər, 2017-ci ilin ilk 3 ayı ərzində isə 504 nəfər vətəndaş müxtəlif məsələlər üzrə müraciət etmişdir. Müraciətlərdən 29-u torpaqla əlaqədar məsələlər, 31-i mənzillə təmin olunmalarına, 41-i evinin təmir olunmasına köməklik, 188-i işlə, 34-ü isə ünvanlı sosial yardımla təmin olunmalarına köməklik, 6-sı görülmüş işlərin nəticəsi ilə əlaqədar minnətdarlıq və təşəkkürünü bildirmiş, 175-i isə digər məsələlərlə əlaqədar olmuşdur.

2017-ci ilin 3 ayı ərzində Qazax RİH Başçısı tərəfindən kəndlər və şəhərdə 14 səyyar görüş keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 4.357 nəfər, müraciət edənlərin sayı 150 nəfər olmaqla 78 təklif irəli sürülmüşdür. Qaldırılan problemlər və təkliflərdən 42-i icra edilmiş, 6 məsələ üzrə işlər davam edir, 30 təklif ilə əlaqədar isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

Bundan sonra da Dövlət Proqramının icra olunmasında hər birimiz daha məsuliyyətlə çalışmalı, verilən tapşırıqların layiqincə yerinə yetirilməsində fəal iştirak etməliyik. Bu yolda hər birinizə uğurlar arzulayıram.

# "Əlimdən gələni edəcəyəm"

## Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun məcburi köçkünlərlə görüşündə bu fikirlər səslənmişdir



**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən əhali ilə mütəmadi olaraq görüşlər keçirir, mövcud olan problemləri yerindəcə həll edir. Bu, artıq bir ənənə şəklini almışdır.**

İş saatının başa çatmasına baxmayaraq İcra Başçısı rayon mərkəzində yaşayan məcburi köçkünlərlə görüş keçirmişdir. Şəhərin Çinardibi deyilən sahəsində yaşayan beşmərtəbəli binada məskunlaşmış sakinlər görüşdə öz problem və qayğılarından söz açmışlar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək binada məskunlaşmış sakinlərin yaşayış şəraitinin aşağı olmasından danışmışdır. Yaxın vaxtlarda bu vəziyyətin aradan qaldırılacağını bildirmişdir. Qeyd etmişdir ki, "əlimdən gələni edəcəyəm ki, sizin yaşayış şəraitiniz yaxşılaşsın. Burada təmir işləri aparılacaq, lazımi abadlıq tədbirləri həyata keçiriləcəkdir. Elə edəcəyik ki, burada məskunlaşmış məcburi köçkünlər normal şəraitdə yaşaya bilsinlər. Bunun üçün lazım olan bütün işlər görüləcəkdir".

Quşçu Ayrım kəndindən olan Qəmət Qasımov, Barxudarlı kənd sakini Nəzifə Məmmədova, Xeyrımlı kənd sakini Savad Hüseynova, Sofulu kəndindən olan Reyhan Alıyeva, Yuxarı Əskipara kənd sakini Azadə Musayeva, Barxudarlıdan Dilbər Məhərrəmova, Sabit Əliyev və başqaları söz alaraq onlarla görüşə gəldiyinə, məcburi köçkünlərlə mütəmadi olaraq maraqlandığına görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmişlər. Eyni zamanda öz qayğı və çatışmazlıqlarından da söz açmışlar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşə yekun vuraraq mövcud problemlərin zaman-zaman aradan qaldırılacağını qeyd etmiş və məcburi köçkünlərə ən xoş arzularını bildirmişdir.

**Elçin İSMAYIL**

# Hər görüş insanlarda böyük ruh yüksəkliyi yaradır

**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov rayon mərkəzində, sərhəd kəndlərində, eləcə də digər kəndlərdə əhali ilə tez-tez görüşlər keçirir, onların qayğı və problemləri ilə maraqlanır, yaranmış çatışmazlıqları yerindəcə həll edir. Belə görüşlərin mütəmadi olaraq keçirilməsinin nəticəsidir ki, əhali arasında rayon rəhbərliyinə qarşı böyük inam və etimad yaranmış, həlli vacib olan ilkin problemlər tamamilə aradan qaldırılmışdır.**



Yaz-tarla işlərinin indiki qızğın çağında İcra Başçısı yenə də tez-tez kənd sakinləri ilə görüşlər keçirir, sahələrdə olaraq təsərrüfat işlərinin gedişatı ilə maraqlanır. Bu da camaatda böyük ruh yüksəkliyi yaradır, torpaqda çalışan insanlara sözün əsl mənasında, qol-qanad verir. Bunun nəticəsidir ki, rayondakı tikinti-quruculuqla yanaşı, kənd təsərrüfatında da işlər istənilən qaydada və səviyyədə gedir. İşləmək üçün yüksək şəraitlə təmin olunmuş kənd sakinləri qollarını çirməyib öz əkin işləri ilə məşğul olur, indidən gələcək bol məhsulun bünövrəsini qoyurlar.

Aslanbəyli kəndində keçirilən görüşdə də kənd təsərrüfatı sahəsində görülən işlərdən danışılmışdır. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov kənd sakinlərini salamladıqdan sonra həyata keçirilən işlər və qarşıda duran vəzifələrdən söz açmışdır. Qeyd etmişdir ki, rayonumuzda bütün sahələrdə işlər görülür. Elə bir sahə yoxdur ki, orada iş görülməsin, tərəqqi və inkişaf olmasın.

Bildirmişdir ki, Prezident İlham Əliyevin qarşıya qoyduğu qeyri-neft sektorunun inkişafı proqramı, onun tərkib hissəsi olan kənd təsərrüfatının inkişaf etdirilməsi vəzifələri rayonumuzda uğurla həyata keçirilir. Əvvəlcədən görülən hazırlıq işlərinin nəticəsidir ki, bu gün rayonda çuğundur, kartof, tütün əkini sürətlə həyata keçirilir. Digər sahələrdə də aqrotexniki tədbirlər görülür. Suvarma suyu kifayət qədərdir və bu sahədə heç bir problem gözlənilmir. Texnika və digər avadanlıqlar da yetərincədir və yaxın vaxtlarda yeniləri də veriləcəkdir. Bir sözlə, rayonumuzda kənd təsərrüfatının inkişaf etdirilməsi üçün lazım olan hər cür şərait var.

RİHB Aparatında ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Məmməd Alıyev çıxış edərək Aslanbəyli kəndində görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Sonra kənd sakinlərindən Şölə Rəhimova, Kifayət Musayeva, Alı Cəfərov, Qədəh Umudov, Adil İsmayılov və başqaları çıxış edərək mütəmadi olaraq onlarla görüşə gəldiyinə, kənd sakinlərinin problemləri ilə daima yaxından maraqlandığına görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova bütün kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Görüşdə bir sıra qayğı və çatışmazlıqlardan da söz açılmışdır.

**Elçin İSMAYIL**

# Taxıl sahələrinin monitorinqi ilə bağlı tədbir keçirilmişdir

**Azərbaycan Respublikası Prezidnetinin 27 mart 2017-ci il tarixli 2768 nörməli Sərəncamına əsasən Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarət Xidmətinin Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi tərəfindən Qazax rayonu ərazisində əkilmiş taxılların monitorinqi ilə bağlı tədbir keçirilmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin akt zalında keçirilən tədbirdə Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin rəis müavini Natiq Piriyev, idarənin dəftərxana rəisi Abbas Abbasov, idarənin böyük inspektoru Anar Əliyev, idarənin Dövlət Yanğın Nəzarəti şöbəsinin əməkdaşı Arzu Nəbiyev, rayonun kənd İnzibati Ərazi Dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri, fermerlər, sahibkarlar, kənd təsərrüfatı idarəsinin məsul işçiləri iştirak etmişlər.

Qazax RİHB Aparatında Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Məmməd Alıyev giriş sözü ilə çıxış edərək keçirilən tədbirin məqsəd və əhəmiyyətindən danışmışdır.

Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin rəis müavini Natiq Piriyev geniş məruzə ilə çıxış edərək məlum sərəncamdan irəli gələn vəzifələr barədə məlumat vermişdir.

Sonra Qazax rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Həmid Pənahov, rayon Statistika İdarəsinin rəisi Faiq Paşayev söz alaraq rayon ərazisində əkilmiş taxılların monitorinqi ilə bağlı görüləcək işlərdən söz açmışlar.

# HGC GROUP MMC tərəfindən şagirdlərə məktəbli üst geyimi verilmişdir



Fəaliyyətə başladığı ilk gündən HGC GROUP MMC məhsul istehsalını və çeşidini artırmaqla yanaşı, fəaliyyət göstərdiyi bölgədə xeyirxahlıq tədbirləri də həyata keçirir. Bayram günlərində zavodun kollektivi Daş Salahlı kəndində, eləcə də zavodda çalışan şəhid ailələrinə baş çəkir, onlara bayram sovqatları verir.

Xeyirxahlıq ənənəsinə sadiq qalan HGC GROUP MMC-nin bir qrup üzvü bu günlərdə Çaylı kənd 1 saylı tam orta məktəbdə olmuş, şagirdlərlə görüşərək onlara məktəbli üst geyimi hədiyyə etmişlər. İbtidai sinifdə - I, II, III və IV siniflərdə oxuyan 120 şagirdə məktəbli üst geyimi paylanılmışdır.

Tədbirdə Qazax rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Sərdar Orucov, zavodun direktoru Orxan Xasməmmədli və zavodun administrasiya bölməsinin rəisi Vüsal Əliyev iştirak və çıxış etmişlər.

Məktəbin direktoru Çəməngül İsmayılova bu xeyirxahlığa görə zavod rəhbərliyinə müəllim və şagirdlər adından öz minnətdarlığını bildirmişdir.

REDAKSİYAYA MƏKTUB GƏLİB

# Mənə göz nurumu qaytaran insan

**Hörmətli redaksiya! Çox düşünüb-daşındım. Sizin insanların taleyi ilə bağlı verdiyiniz yazılar mənə öz taleyim haqda, daha doğrusu, taleyimə zərbələr vurulduğu zaman mənə kömək edib həyata qaytaran İnsan haqqında yazmağa cürət, həvəs verdi. Ümid edirəm ki, bu yazı "Göyəzən" qəzetində, ya da GOYEZEN.AZ saytında dərc olunacaq və minlərlə oxucu bu sətirləri oxuyacaqdır.**

Gənc olmağıma baxmayaraq mənim taleyim dünyaya gəldiyim gündən düz gətirməyib. Belə ki, kəndimiz - Bağanıs Ayrım kəndi ermənilər tərəfindən 27 ildir ki, işğal olunub. Qazaxda köçkünlük həyatı yaşayırıq. Sağ olsun ölkə başçısını. Ötən il məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə bizim ailəyə də mənzil verildi və artıq biz normal bir həyat yaşayırıq. Bizim ailəni, eləcə də 300-dən çox məcburi köçkün ailəsini mənzillə təmin etdirdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Ömrü boyu ölkə başçısının duaçısı olacağam.

Köçkünlük həyatı az imiş kimi, gözlərimdə problem yaranmağa başladı. Göz xəstəliyi mənə əziyyət verirdi. Bunun qarşısını almaq üçün həkimlərin məsləhəti ilə Bakı şəhərində əməliyyat olundum. Bundan sonra görmə qabiliyyətimi daha da itirdim, günü-gündən vəziyyətim pisləşməyə başladı. Get-gedə gözümün nurunu itirirdim. Artıq öz doğmalarımın, uşaqlarımın üzünü belə görə bilmirdim. Yenə də həkimə düşdüm. Amma hansı həkimə müraciət etdimsə də, dərdimə əlac tapılmadı. Həkimlərin son məsləhəti belə oldu ki, mütləq xarici dövlətə getməliyəm. Mənim isə buna imkanım yox idi. Çünki ailəmin maddi durumu yaxşı deyildi. Xaricdə əməliyyat olunmaq üçün isə böyük vəsait tələb olunurdu. Çox ümidsiz halda idim. Həyat yoldaşından ayrılan, 2 azyaşlı uşaqları ilə atasının himayəsində yaşayan ana-qadın nə edə bilərdi? Özüm, elə valideynlərim də böyük bir dərd içində idik.



Biz Rəcəb Babaşovun xeyirxahlığı barədə çox eşitmişdik. Eşitmişdik ki, hamıya öz kömək əlini uzadır, ehtiyaclarını ödəyir. Elə bizim yaşadığımız yeni qəsəbədə neçə məcburi köçkün ailəsinəköməklik göstərib, çətin vəziyyətdən neçələrini qurtarıb. Biz də ailəmizlə belə qərara gəldik ki, cənab Rəcəb Babaşova müraciət edək. Çünki başqa çıxış yolumuz yox idi. Sonuncu ümid yerimiz Rəcəb müəllim idi.

Belə bir deyim var: Deyir, Allah dərd verəndə, dərmanını da verir. Biz müraciət edən zaman gördük ki, yanılmamışıq. Çünki Rəcəb Babaşov çox diqqətlə, özü də təəssüf hissi keçirə-keçirə bizi dinlədi. "Ağlama qızım, - dedi. - Hər nə lazımdırsa edəcəyəm ki, sənin gözlərin görsün".

Ata qayğısı ilə deyilmiş bu sözlər ürəyimdə bir ümid qığılcımı yandırdı. İnandım ki, bu xeyirxah İnsan mənim dərdimə əlac edəcəkdir.

Elə də oldu. Mənim müraciətimdən sonra İcra Başçısı əməliyyat xərcini öz üzərinə götürdü. Məni əməliyyat olunmaq üçün Gürcüstan Respublikasına göndərdi. Əməliyyat çox çətin keçsə də nəticəsi uğurlu oldu. Mən indi görürəm. Uçmağa qanadım yoxdur. Çünki mən artıq öz övladlarımı görürəm, onların qayğısına qala bilirəm.

Rəcəb Babaşov gözümün nurunu qaytarmaqla mənə ikinci həyat verdi. Yer üzündə gözlərin nurunu qaytarmaqdan böyük savab iş yoxdur. Rəcəb müəllim gözlərimin işığını qaytarmaqla məni həyata qaytardı, yenidən həyat bəxş elədi. O, təkcə mənə deyil uşaqlarıma - qızım Zeynəbə və oğlum Raqifə də yeni bir həyat verdi. Atadan məhrum olan uşaqlarımı anadan məhrum olmağa qoymadı. Mən bu cavan yaşda əlimi hər şeydən üzmüşdüm, çünki özümü işə yararsız hesab edirdim. İndi isə uşaqlarımı saxlamaq üçün işləyə də bilərəm. Bütün bunlara görə, Rəcəb Babaşova minnətdaram. Bilmirəm ki, bu böyük xeyirxahlığa görə necə minnətdarlıq edim. Təkcə onu deyirəm ki, mənə göz nurumu qaytaranın ömrü nura boyansın.

Hörmətli redaksiya! Xahiş edirəm "Göyəzən" qəzeti və GOYEZEN.AZ saytı vasitəsilə mənim təşəkkürümü rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova çatdırasınız.

**Əvvəlcədən minnətdarlığımı bildirirəm.**

*Hörmətlə,*

**Adığözəlova Türkan Ramiz qızı,**
**Bağanıs Ayrım kənd sakini**

# İsrafil ağa hamamı bağlanmışdır



**Qazax şəhərində yerləşən İsrafil ağa hamamı rayonumuzun ən qədim abidələrindən biridir. Tarixi özündə yaşadan bu tikili ömrünün ikinci yüzilliyini yaşayır.**

İsrafil ağa hamamı uzun illər fəaliyyət göstərmiş, insanları paklığa, təmizliyə qovuşdurmuşdur. Bir sözlə, rayon sakinləri, eləcə də rayonumuza gələn qonaqlar ondan bir təmizlik ocağı kimi istifadə etmişlər.

Hamam çirkdən təmizlənməkdir, yəni təmizlikdir, paklıqdır. Bu məkan təmiz olmalıdır ki, insanlar tərəfindən istifadə olunsun, onlara bir xeyri dəyə bilsin. Çünki hamam özündə yalnız bunları ehtiva edir. Bir sözlə, hamamda antisanitariya halları olmamalı, təmizlik yüksək səviyyəyə gətirilməlidir. Cəmiyyət hamamı belə görüb, belə də qəbul edib. Əks halda bu məkan insanlar tərəfindən qəbul edilməz, adamlarda özünə qarşı, onu işlədənlərə qarşı ikrah hissi oyadar. Belə halların olmaması üçün, hamamın hamam kimi işləməsi üçün burada təmizlik işləri çox yüksək səviyyədə olmalı, insanlara məqsədəuyğun şəkildə xidmət göstərməlidir. Yalnız belə olduğu halda əhali bu məkana üz tutar, ondan təmizlik məqsədi ilə istifadə edər. Əks halda isə hamam hamam kimi qəbul edilməz.

Necə ki, Qazaxda fəaliyyət göstərən, adını qeyd etdiyimiz İsrafil ağa hamamı kimi. Uzun illərdir ki, fəaliyyət göstərən bu hamamdan son bir ildə məqsədə müvafiq şəkildə istifadə olunmamışdır. Antisanitariya halları olduğu üçün son vaxtlar rayon sakinlərinin ondan istifadəsi demək olar ki, tamamilə azalmışdı. Bununla əlaqədar olaraq hələ ötən il hamam bağlanmış və lazımi tədbirlərin görülməsi vacib hesab olunmuşdur. Bir müddətdən sonra hamamın fəaliyyəti yenidən bərpa olunmuş və təkrar olaraq işə salınmışdır.

Lakin əvvəllər buraxılmış nöqsanlar yenidən təkrar olunmuş, bildirilən irad və göstərişlər təkrar olaraq baş verməyə başlamışdır. Hamamda natəmizlik halları yenidən mövcud olmuş, səliqə-sahman yaradılmamışdır. Ən çox da insanları narahat edən burada baş verən neqativ hallardır. Bunun nəticəsidir ki, rayon sakinlərində haqlı olaraq hamamdan narazılıq əmələ gəlmişdir. Natəmizliyin hökm sürdüyü, neqativ halların mövcud olduğu bir şəraitdə hamam fəaliyyət göstərə bilməzdi.

Bütün bunları nəzərə alaraq, icarədarın müraciətinə əsasən bağlanmış müqaviləyə xitam verilmiş və İsrafil ağa hamamı bağlanmışdır.

Yaxın günlərdə ətrafda olan Şəhidlər xiyabanının tikintisi başa çatdıqdan sonra tarixi abidə olan İsrafil ağa hamamının da yenidən bərpasına başlanılacaqdır.

# Rayonumuzda tütün əkininə başlanıb

**Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə bir sıra səmərəli işlər görülmüş, əkin sahələri daha da genişləndirilmişdir. Bunun nəticəsidir ki, bu il bütün əkinlər nəzərdə tutulduğundan xeyli çox sahədə əkilmişdir. Əkin sahəsi genişləndirilən belə məhsullardan bir də tütündür.**



Qeyd edək ki, 2016-cı ildə rayonda 10 hektar sahədə tütün əkilmiş və nəzərdə tutulduğundan xeyli çox məhsul götürülmüşdür. Məhsuldarlığın yüksək olduğu və tütünün rayon üçün əlverişliliyi nəzərə alınaraq bu il əkin sahələri genişləndirilmişdir. Ötən ildən fərqli olaraq bu il tütün ştillərinin becərilməsi işləri də aparılmış, ştillər rayon ərazisində yaradılmış tütün istixanalarında yetişdirilmişdir.

Rayon üzrə 50 hektar sahədə tütün əkilməsi nəzərdə tutulub. Onun 30 hektarı Kosalar kəndində əkiləcəkdir.

Artıq Kosalar kəndində tütün əkininə başlanılmışdır. İstixanalarda yetişdirilmiş ştillər əkiləcək sahələrə gətirilərək əkin sahələrinə köçürülmüşdür. Əvvəlcədən lazımi hazırlıq işlərinin görülməsinin nəticəsidir ki, əkin işləri sürətlə aparılır. Əkinçilər öhdələrinə düşən işləri həvəslə həyata keçirirlər.

İşlərin gedişi ondan xəbər verir ki, əkin prosesi optimal müddətdə başa çatdırılacaqdır. Görülmüş bütün işlər keyfiyyətlə və aqrotexniki qaydalara uyğun aparılır.

# TAXIL YIĞIMI ZAMANI YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

**Bu gün taxıl tədarükü iqtisadiyyatımızda gündəmdə olan prioritet sahələrdəndir. Təsadüfi deyildir ki, son dövrlər taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçımız hökumət tərəfindən mühüm qərarlar qəbul etmişdi.**

Taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu strateji əhəmiyyətli məhsulun yanğın təhlükəsizliyi də daima diqqət mərkəzində olmalı, yanğın təhlükəsizliyi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilməlidir.

Zəmilərin yaşıl örpəyini qızıl donla əvəz olunduğu, kombaynların sahələrə çıxdığı, yəni taxıl yığımı, malqara üçün silos, quru ot tədarükü görüldüyü mövsümdə müxtəlif texniki bitkilərin, o cümlədən taxılın, həmçinin qaba və şirəli yemlərin yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd olunmalıdır ki, kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının deyil, həm də kənd təsərrüfatında, o cümlədən fermer təsərrüfatında çalışan əməkçilərin, təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexanniklərin, sürücülərin və s. ümdə vəzifəsi olmalıdır. Xüsusi olaraq qeyd edək ki, mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Taxıl və ot yığımına başlamazdan əvvəl mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfatı texnikasını yanğına qarşı hazırlamalı, ilkin odsöndürmə vasitəsilə tam təmin etməlidirlər. Dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanılması dövründə yanğın təhlükəsizliyinə nəzarət etmək üçün əmrlə cavabdeh şəxslər təmin edilməlidir.

Məhsul yığımında iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi proqram üzrə yanğına qarşı təlimat keçməlidirlər. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir. Məhsul yığımında iştirak edən bütün texnikalar işə başlamazdan əvvəl yığıma qarşı texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tədbirlərinə cavab verməsi barədə akt tərtib edildikdən sonra işə buraxılmalıdır. Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir. Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda onda şum traktorları mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir.

Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir. Mühərriki akkumlyatorla işə salınan kombayn, traktor və özü hərəkət edən kənd təsərrüfatı texnikaları akkumlyatorları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtülmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və yaxud plastmas borularla mühafizə olunmalıdır.

Yığımda iştirak edən texnikaların yanğın təhlükəsizliyi tələblərinə uyğun olması hər bir müəssisədən təşkil olunmuş xüsusi komissiya tərəfindən yerli Dövlət Yanğın Nəzarəti orqanı əməkdaşı ilə birgə yoxlanılmalıdır. Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar adam tərəfindən işə salınması, onun yedəyə alınmaqla və yüksəkliklərdən buraxmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra kombaynların sahədə saxlanması, kombaynlarda əlavə yanacaq və yağlama materialların saxlanılması qəti qadağandır.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra zəruri tədbirlər təxirə salınmadan həyata keçirilməlidir. Belə ki, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmisinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr məsafədə tayalanmalıdır. Taxıl yetişən zaman cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədilə xüsusi keşikçilər ayrılmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən kənara daşınmalıdır. Taxıl yığımı, ot tədarükü müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən, xırmanlardan və. s yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda yerləşməlidir.

Tarla düşərgələrində, taxıl təmizləmə xırmanlarında, ot və küləş yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğın söndürmə vasitələri ilə təmin edilməli, eləcə də "Siqaret çəkmək yeri" yazılmış lövhə asılmalıdır. Digər sahələrdə siqaret çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır. Məhsul yığımı dövründə bir sıra zəruri yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilməlidir. Biçin işi aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Yığım maşınlarının diyircəklərinin və digər sürtülən hissələrinin qarşısını almaq məqsədilə onların vaxtıvaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların, digər texnikanın fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtı-vaxtında təmizlənməlidir. Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralıda yerləşdirilməlidir. Xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir və böyük zəhmət hesabına əmələ gəlir. Elin bu əvəzsiz sərvətini oddan qoruyun!

**Gəncə Regional Dövlət**
**Yanğın Nəzarəti İdarəsi**

# AVTOMATİK YANĞINSÖNDÜRMƏ TOPU YANĞIN TƏHLÜKƏSİZLİYİNİN ETİBARLI TƏMİNATÇISIDIR

**Klassik yanğınsöndürmə vasitələrindən üstünlüyü: A, B, C sinif yanğınların söndürülməsi üçün nəzərdə tutulub.**

- İnsan müdaxiləsi, mexaniki təsir olmadan topa kiçik bir alışma, alov toxunarkən aktivləşir, yanğın 3-5 saniyə müddətində sönür.

- Avtomatik yanğınsöndürmə topunu alovun mərkəzinə atmaqla yanğını dərhal söndürmək mümkündür.

- Yanğın zamanı tətbiq etmək üçün heç bir yaş məhdudiyyəti və xüsusi texniki təlimə ehtiyac yoxdur.




Ekoloji cəhətdən təhlükəsizdir. Avtomatik yanğınsöndürmə topu həm də siqnalizasiya vasitəsidir.

- Avtomatik yanğınsöndürmə topu 6 il müddətində istismara yararlıdır. Yenidən doldurulmasına və işlək vəziyyətdə olmasına nəzarət edilməsinə ehtiyac yoxdur.

- Uşaq topuna bənzəyir, çəkisi 1,3 kq-dır. Hazırda istifadə olunan ilkin yanğınsöndürmə vasitələrindən 5-10 dəfə yüngüldür.

- 1300V gərginlik altında olan elektrik qurğularını söndürmək iqtidarındadır.

- 1 ədəd avtomatik yanğınsöndürmə topu 8,3 kub metr həcmli məkan üçün nəzərdə tutulur.

**Gəncə Regional Dövlət**
**Yanğın Nəzarəti İdarəsi**


# ELAN

İDEA İctimai Birliyinin təşəbbüsü ilə respublikamızda təbiətin mühafizəsi, ekoloji tarazlığın, ağacların və təbii sərvətlərin qorunması məqsədilə tullantıların idarə olunmasına, təkrar emalın təşviq edilməsinə yönəldilmiş kağız, karton və plastik tullantıların çeşidlənərək yığılması və təkrar emala verilməsi layihəsi həyata keçirilməyə başlanmışdır.

Bununla əlaqədar Qazax rayonunda çeşidlənmiş tullantıların qəbulu məntəqəsi yaradılmışdır. Tullantılar Qazax şəhəri Ə.Şıxlinski küçəsi köhnə RTS binasında qəbul edilir. Kağız tullantıların 1 tonu üçün 50 manat, plastik tullantıların 1 tonu üçün isə 110 manat pul verilir.

Məlumat üçün bildiririk ki, kağiz tullantılarından tetrapak qutular (süd, meyvə şirələrinin qablaşdırıldığı kağız paketlər), üzərində laminasiya (plonkalı) olan etiketlər və ayaqqabı qutuları, plastik tullantılarından isə bütün növ sərt plastik tullantılar (məs: televizor plastiki, avtomobil buferi və s.) qəbul edilmir.

**Əlaqə telefonu: (050) 545-68-04**


## SƏBİR

Çətin günün ardından,
Vardır əlbət aydınlıq.
Allahdan istəyərək,
Çağır hər gün yaxşılıq.

Baxmayaraq sən onu,
Görmürsən heç bir yerdə.
Dualarda tapırsan,
Qəlbində gizli yerdə.

O, hər zaman səninlə,
Hər duanda qəlbində.
Səbirini göstər ona,
Tez çatarsan arzuna.

**Zərifə SAMİRQIZI**


İTMİŞDİR

**24.12.2004-cü ildə verilmiş, Carçıoğlu LTD şirkətinə məxsus olan 4200079301 saylı VÖEN-nün Şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**



Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 1257

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
*Foto: Mehman Vələdov.*